# Orta əsrlərdə saray və yaşayış evlərinin dekorativ tərtibatı

## Əlyazma kitabların miniatürləri əsasında

**Saray və zadəgan evlərinin interyer və eksteryerlərinin təsviri baxımından Böyük Təbriz "Şahnaməsi" 1330-1340 (Demot) maraq doğurur. Təbrizdə 14-cü əsrin birinci yarısında köçürülmüş bu əlyazmanın miniatürlərində həmin dövrün memarlığı və onun dekorativ tərtibatı xırdalıqlarla əks olunmuşdur.**

Belə miniatürlər sırasında "Böyük İsgəndər taxtda", "İsgəndərin cənazəsi üzərində ağlaşma", "Nuşirəvan Mehbudun evində nahar edir", "Fəridunun və həyat yoldaşının İsfəndiyarın ölümünə ağlamaları", "Zəhhək taxtda", "Sinduxt qızının məhəbbətindən xəbər tutur" və başqa miniatürləri göstərmək olar.

Saray interyerini əks etdirən miniatürləri "Böyük İsgəndər taxtda" miniatürü açır. Klassik "taxt kompozisiyası"nı yaradın rəssam İsgəndəri mərkəzdə, qızıl taxtda əyləşmiş vəziyytdə, saray əyanlarının və xarici qonaqların əhatəsində təsvir etmişdir. Təsvirdən göründüyü kimi taxt xüsusi mehrab qarşısında yerləşdirilmişdir. Mehrab üç tağdan ibarətdir, onlardan mərkəzdəki daha böyük və hündür, yan tağlar isə daha xırdadır.

Miniatürdə saray divarlarının bədii tərtibatı diqqəti cəlb edir. Belə ki, təsvirdən göründüyü kimi, divarların dekorunu əksər halda dekorativ divar boyakarlığı təşkil edir. Saray divarlarının aşağı hissəsinin 3/2-si ornamental motivlərlə, yuxarı hissəsinin 3/1-i isə ornamental pannolar vasitəsilə tərtib olunmuşdur. Bu iki hissəni kufi xətti ilə yazılmış epiqrafik friz ayırır. Saray divarlarını bəzəyən nəbati naxışlar, gül-çiçək və ağac təsvirləri cənnət obrazını yaradırlar. Saray interyerinin dekorunda istifadə olunan rənglər əsasən qızılı və qırmızı rənglərdir. Bu rənglər saray obrazının zənginliyini, aristokratikliyini vurğulayırlar.

Sarayın "taxt-gah" hissəsini qəbullar salonundan xüsusi "sərhəd panelləri"ayırır. Qızıl, gümüş və qiymətli ağaclardan hazırlanmış bu panellər şahı və onun ətrafındakıları digər hadisə iştirakçılarından və təsvirin tamaşaçılarından ayırır.

Buna oxşar digər bir kompozisiya "Zəhhək taxtda" adlanır. Birinci miniatürdən fərqli olaraq, burada rəssam interyer təsvirini eksteryer təsvirləri ilə montaj edərək şərti bir "saray kompozisiyası"nı yaratmışdır. Burada da Zəhhək rəsmi qəbullar salonunda taxtda əyləşmiş vəziyyətdə təsvir olunub. Kompozisiyanın kənarlarında sarayın bağlı qapıları təsvir olunub, arxa planda isə yüksək saray divarları görünməkdədir.

Zəhhəkin saray interyerində divarlar yenə də dekorativ divar rəngkarlığı ilə bəzədilib, çatma tağlı qapıların üst hissələrində kaşı inkrustasiyası üsulu ilə epiqrafika görünməkdədir. Tağların mərkəzində qızıl sütunlar təsvir olunaraq, sarayın cah-cəlalından xəbər verir.

Qeyd etmək lazımdır ki, hər iki kompozisiyada interyer dekorunun tərtibində rəssam saray üslubu ilə məscid dekorunu sintez etmişdir.

"Taxt kompozisiyası"nın digər variantın biz elə həmin əlyazmanın "İsgəndərin cənazəsi üzərində ağlaşma" miniatüründə izləyirik. Bu miniatürdə sarayın rəsmi qəbullar zalı deyil, yataq otağı təsvir olunmuşdur. Təsvirin mərkəzində yataq taxtı və onun üzərində İsgəndərin bahalı parçalara bürünmüş cənazəsi yerləşdirilmişdir.

Cənazə pərdəli "baldaxin" tipli taxtın üzərində yerləşdirilmiş, onun ətrafında isə ah-nalə edən və ağlaşan hərəmlər, yaxın məsləkdaşlar, saray əyanları və qonaqlar təsvir olunmuşlar. Baldaxinin(taxt) sütunları oymalı palıd ağacından və qızıl ucluqlardan hazırlanmışdır.

Miniatür şahların yataq otağının təsviri baxımından maraq doğurur. Miniatürün ümumi koloriti, otaq divarlarının rəngi və koloriti əsasən sakit, soyuq rənglərlə təsvir olunaraq, matəm əhval-ruhiyyəsini əks etdirir. Yataq otağı və otaqdan çıxan dəhlizlərin tavanlarından qızıl qəndillər asılmışdır. Taxtın dörd küncündə iri matəm şamları yanır. Otağın döşəməsi xalçalarla örtülmüşdir, divarların üst hissələri isə dekorativ haşiyələrdən və tağvari medalyonlardan ibarət boyalı divar təsvirlərindən ibarətdir.

Müxtəlif saray otaqlarının və onların dekorativ tərtibatının təsviri baxımından 1330-1340-cı illər "Şahnamə" əlyazmasının "Fəridunun və həyat yoldaşının oğlu İsfəndiyarın ölümünə ağlamaları" miniatürü diqqəti cəlb edir. Ehtimal etmək olar ki, burada rəssam sarayın hərəmxana hissəsini təsvir etmişdir.

Miniatürün mərkəzində otağın içində Fəridunla həyat yoldaşı ağlayarkən təsvir olunmuşlar. Otağın daxili həyətə açılan şəbəkəli barmaqlıqları kiçik pəncərələri bəzəyirlər. Otağın mühüm dekorativ elementi kimi oymalı sütunlar diqqəti cəlb edirlər. Sütunların baş hissəsi (kapitel) və oturacaqları (baza) nəbati motivli relyefli oymalarla bəzədilmişdir. Bu sütunlar yunan-roma sütunlarından kəskin şəkildə fərqlənirlər və ehtimal etmək olar ki, onların üslubu yerli, qədim Şərq ənənələrini və bədii üslubunu əks etdirir.

Ön planda daxili həyətin görünüşü verilmişdir. Bağın içindəki hovuzun məhəccəri dekorativ daşyonma sənətkarlığı nümunəsi kimi diqqəti cəlb edir.

Miniatür təsvirlərdə orta təbəqəyə aid evlərin təsvirinə də rast gəlmək mümkündür. Adətən belə evlərin həm eksteryer görünüşü, həm də interyeri dekorativ tərtibat baxımından bəsit olmuşdur. Miniatürə əsasən demək olar ki belə evlər əksər halda bişmiş kərpiclərlə tikilmişlər.

Orta təbəqəyə məxsus evin təsviri baxımından həmin "Şahnamə"nin "Nuşirəvan Mehbudun evində nahar edir" miniatürünü göstərmək olar. Nuşirəvanla Mehbud miniatürün sol hissəsində, nahar edərkən təsvir olunmuşlar. Miniatürün sağ hissəsində Mehbudun evinin darvazası və yoldan keçən sadə sakinlər təsvir olunmuşlar. İkitaylı darvazanın üst hissəsi və pilləkanları mavi rəngli kaşılarla bəzədilmişlər. Miniatür 14-cü əsr üçün yeni olan kompozisiya prinsipi ilə qurulmuşdur.

Şərti montaj üsulunu əks etdirən belə kompozisiya miniatürdə eyni vaxtda evin həm interyeri, həm də eksteryeri təsvir olunaraq, ev haqqında daha geniş təsəvvürlərin yaranmasına şərait yaradır.

Nuşirəvanla Mehbud evin eyvanında təsvir olunmuşlar. Təsvirə əsasən demək olar ki, belə eyvanlar adətən ikinci mərtəbədə yerləşdirilirdilər. Eyvanın məhəccəri incə metaldan hazırlanıb. Daxili divarda isə dekorativ boyakarlıq nəzərə çarpır.

Miniatür - illüstrasiya əsasən demək olar ki, 13-14-cü əsrlərdə evlərin divar hörgülərində sadə hörgü ilə bərabər, dekorativ hörgüyə də rast gəlmək mümkündür. Belə hörgülərdə divara hörülən kərpiclərin həndəsi prinsiplə hörülməsi, nəticə etibarilə, həndəsi naxış əmələ gətirmişdir.

Buna oxşar bədii-konstruktiv həllə həmin əlyazmanın digər bir miniatüründə, "Sinduxt qızının məhəbbətindən xəbər tutur" illüstrasiyasında rast gəlirik. Burada da biz evin interyer təsvirinin xaricdən görünüşlə montajını izləyirik. Otağın daxili quruluşu və dekoru mərkəzdə, dördkünc sahədə təsvir olunub.Yan hissələrdə isə evin giriş qapıları təsvir olunub.

Erkən miniatürlərdə "qapı simvolikası"na toxunan görkəmli tədqiqatçı Ş. Şükürov belə qapı təsvirlərinin miniatürdə xüsusi rol oynadığından danışaraq qeyd edir: "...qapı təsvirləri miniatürdə müxtəlif semantik zonaları ayıraraq (interyer və eksteryer) orada baş verən hadisələrin xarakterini müəyyən etmişlər".

Ş. Şükürovun təbirincə desək, miniatürdə bağlı qapılar arxasında baş verənlər otaqda bir sirr olaraq, xarici aləmdən qapı vasitəsilə ayırılmışdır.

Miniatür kompozisiyasının əsasını təşkil edən montaj prinsipi sadə, lakin çox orijinal bir üsulla həll edilib. Rəssam sanki xaricdən görünən evin bir divarını kəsib çıxarmaqla, evin daxilini "göstərməyə"nail olub. Otağın dekorunda xalçalar, ipək parça, divar boyakarlığı və kaşı süstləməsindən istifadə olunub.

14-cü əsrin birinci yarısına aid və müxtəlif təyi-

natlı memarlıq tikililərin fraqmentar təsvirlərinə biz digər bir əlyazmanın miniatürlərində də rast gəlirik. Bu 1330-cı ildə Şirazda yaradılmış "Şahnamə" və miniatürşünaslıqda Əli ibn Hüseyni Bəhməni üçün yaradılmış və hal-hazırda Türkiyənin Topqapı muzeyində (Xəzinə 1479) saxlanılan nüsxədir .

Əlyazmanın miniatürlər də fraqment xarakteri kəsb etməsinə baxmayaraq, saray və qəsrlərin daxili və xarici görünüşlərinə rast gəlinir. Dekorlu interyer təsviri kimi " Qustaham möcüzəli gözəl qarşısında" illüstrasiyasını göstərmək olar. Bu miniatürdə də rəssam eksteryer və interyer təsvirini montaj edərək, saray tikilisi barədə daha əhatəli təsəvvür yaratmağa çalışmışdır. Miniatürün mərkəzi hissəsində taxt üstündə "peyda olmuş" gözəl xanım və onu seyr edən Qustaham təsvir olunmuşlar. Taxtın arxa hissəsi mehrabi dekorativ kompozisiya prinsipi ilə bəzədilmişdir. Divarların orta hissəsindən keçən dekorativ friz stallaktitlərə bənzər, relyef şəkilində icra olunmuşlar. Stallaktitləri ifadə edən xırda,sıra ilə düzülmüş tağvari oymalar müxtəlif rənglərlə rənglənərək haşiyə yaradırlar.

Həmin əlyazmanın miniatürlərində saray tikililəri ilə bərabər feodal qəsrlərin təsvirlərinə də rast gəlinir. Rəssam belə bir qəsrin görünüşünü "Xosrov Şirinin qəsri önündə" miniatüründə təsvir etmişdir. Klassik "qülləvari" qəsr quruluşuna malik Şirinin qəsrinin xarici divarları "dekorativ hörgü" ilə, bişmiş kərpiclərdən hörülmüş bürc və onun qapısından ibarətdir. Qəsrin ən bəzədilmiş hissəsi məhz onun qapısıdır. Bağlı, ikitaylı qapının dekorunda qızıl, kaşı,boya və ağac vasitəsilə zənginlik, möhkəmlik və möhtəşəmlik obrazı yaradılmışdır.

14-ci əsrin birinci yarısına aid əlyazma kitabların miniatürləri yalnız interyer təsvirlərini deyil, bir çox hallarda interyerə daxil olan əşyaların təsvirlərini də bizim dövrümüzədək çatdırmışdır. Belə əşyalar sırasında əksər halda bəzəkli məişət ləvazimatının təsvirlərini izləmək mümkündür. Bu əşyalar interyerlərin ümumi dekorativ ahəngində iştirak edərək,ansambl təşkil etmişlər və bu baxımdan həmin əşyaların bədii-konstruktiv xüsusiyyətləri ümumi dekor üslubuna uyğunlaşdırılmışlar.

Yataq otağının mühüm elementi olan bəzəkli yataq taxtının təsvirini biz Şirazda 1333-ci ildə köçürülmüş "Kəlilə və Dimnə" əlyazmasının miniatüründə müşahidə edirik. Londonun Britaniya muzeyində saxlanılan bu əlyazmanın miniatürlərindən biri "Dülgər Sarandib,onun xəyanətkar xanımı və onun məşuqu" adlanaraq, bu dövrə aid yataq taxtının üstündə uzanmış məşuqları təsvir edir.

Təsvirə əsasən yataq taxtı dörd ayaqlı olmuşdur. Onun ayaqları sədəflə bəzədilmiş, baş və ayaq hissələrində isə mütəkkələr qoyulmuşdur. Yataq otağının divarlarında gül-çiçək motivli divar rəngkarlığı nəzərə çarpır. Bişmiş kərpicdən hörülmüş divarın tağvari pəncərəsindən görünən bu yataq taxtı ehtimal etmək olar ki, bu dövr üçün səciyyəvi olmuşdur.

Yaşayış interyerinin və onun dekor xüsusiyyətlərinin daha müfəssəl təsvirinə biz Almaniyanın Berlin şəhərində "Şərq mədəniyyətləri" muzeyində saxlanılan məşhur Dits albomunun miniatürlərində rast gəlirik. Təbriz-Bağdad miniatür məktəblərinə aid edilən belə bir miniatür "Ustada sui-qəsddən sonra oğrunun yataq otağından qaçması" adlanır. Burada da biz yüksək təbəqəyə məxsus yataq otağını və onun bədii tərtibatını müşahidə edirik. Təsvirdən göründüyü kimi, yataq otağının ən zəngin elementi dördayaqlı yataq taxtıdır. Taxtın baş hissəsi inkrustasiya texnikası ilə yaradılmış təsviri pannolarla bəzədilmişdir. Otağın döşəməsi şəbəkə üsulu ilə yığılmış həndəsi ornamental dekordan ibarətdir. Divarlarda nəzərə çarpan pəncərə,qapı və tağçaların kənarları ornamental haşiyələrlə bəzədilərək, evin zəngin dekorativ tərtibatını tamamlayırlar.

Miniatür təsvirə əsasən fikir irəli sürmək olar ki, bu dövrdə yataq otaqlarının dekorativ tərtibatını əsasən, müxtəlif növ qiymətli ağacların, toxunma materialların və kaşıkarlıq sənətkarlığının sintezi təşkil edirdi. Divarların dekorativ tərtibatına gəldikdə, burada əsasən divar boyakarlığından istifadə olunmuş və əsasən dekorativ-ornamental kompozisiyalar təsvir olunurdu. İnteryerlərdəki divar rəngkarlığının digər istiqamətini gül-çiçək təsvirləri təşkil etmişdir.

Bu dövrə aid dini tikililərin interyer tərtibatları da diqqəti cəlb edir. Əsasən İslam dininin tələblərinə uyğun olaraq, süjetli təsvirlərdən imtina edən belə tərtibatlar sırf ornamental və epiqrafik xarakter daşımışlar. Bu dövrün məscid interyerlərindən biri kimi Təbrizdə 1350-1360-cı illər ərzində yaradılmış "Meracnamə" əlyazmasını və onun miniatürlərini göstərmək olar.

Hal-hazırda İstambulun Top-qapı saray muzeyində saxlanılan bu əlyazmanın miniatürləri sırasında "Məhəmməd peyğəmbər Qübbət əs-Səhra məscidində" illüstrasiyası bilavasitə məscid interyerini təsvir edir. Təsvirdən göründüyü kimi, Qüds şəhərində indi də yerləşən bu tarixi məscid vaxtilə sütunlu məscidlər tipinə aid olmuşdur. Miniatürdə rəssam məscidin mərmər sütunlarını böyük məharətlə təsir etmişdir.

Səkkizsəthli ibadət zalının divarları kor tağlardan təşkil olunmuş və qızılı rəngə boyanmışdır. Tağların timpanları qırmızı rəngli olmuş və xırda gül-çiçək naxışları ilə bəzədilmişdir.

Məscid binalarının interyerləri ilə bərabər, interyerləri simvolizə edən dini qurğuların təsvirlərinə də miniatürlərdə rast gəlmək mümkündür. Belə memarlıq qurğularından biri məscidin minbəridir. Məscid mehrabının və minbərin konstruktiv xüsusiyyətlərinin və onların dekorativ tərtibatının təsvirinə biz 1397-98-ci illərdə Şirazda yaradılmış məşhur "Şahnamə" əlyazmasının "Çingiz-xan xalqla Buxara məscidində söhbət edir" miniatüründə rast gəlmək mümkündür. Palıd ağacından incə yığma şəbəkə üsulu ilə hazırlanmış minbərin dekorunu həndəsi motvli "zireh" tipli kompozisiya təşkil edir. Mehrabın timpanı və tağ-üstü kitabəsi oyma üsulu ilə mürəkkəb nəbati kompozisiya ilə bəzədilmişdir.

İnteryer təsvirlərinin xırdalığı və dekorativ təfərrüatları baxımından Türkiyənin İstambul şəhərində, Topqapı sarayı muzeyində saxlanılan (Xəzinə.2153) 1360-1370-ci illərdə Təbrizdə hazırlanmış "Şahnamə"əlyazmasını və onun miniatürlərini göstərmək olar. Sultan Uveys Cəlair hakimiyyəti dövründə və onun şəxsi sifarişi ilə hazırlanmış bu əlyazma "Cəlair Şahnaməsi" adı ilə də məşhurdur.

**Böyük ustad-rəssam Şəmsəddin Təbrizi tərəfindən yaradılmış bu miniatürlərdə ilk dəfə interyer və eksteryerlərin bədii xüsusiyyətləri,dekorativ gözəlliyi böyük diqqət və sevgi ilə təsvir olunmuşdur. Orta əsrlər Şərq incəsənətini təhlil edən bütün tədqiqatçılar bəzək sənətinin müsəlman Şərqində xüsusi rolu barədə danışırlar. Təsviri incəsənətin özü bir bədii kod və yaxud tekst kimi qavranılsa, orada "Bəzəyin özü əsas təşkiledici prinsiplərdən biri olmuşdur".**

● **Namiq ABDULLAYEV,**
*Azərbaycan Dövlət Rəssamlıq Akademiyasının dissertantı*

## Ədəbiyyat

1.Шукуров Ш. Искусство средневекового Ирана. М. "Наука" 1989.
2.Веймарн Б. В. Искусство Арабских стран и Ирана VII-XVII веков. М.1974.
3.Персидские миниатюры XIV-XVII вв. Вступительная Ст. О.Ф.Акимушкин и А.А.Иванова/, М.:Искусство. 1968.

## РЕЗЮМЕ

**Декоративное оформление средневековых дворцов и жилых сооружений**

*( по данным миниатюрной живописи рукописных книг)*

В статье исследуется типология декоративного оформления интерьеров и екстерьеров дворцовых и жилых построек средневековья. Реконструкция принципов декорирования и их типов ведется на основании сохранившихся синхронных иллюстраций в средневековых рукописных книгах Среднего Востока.

## SUMMARY

**The decoration of medieval palaces and residential buildings**

*(According to the miniature painting manuscripts)*

The article deals with the typology of interior design and Exterior palace and residential buildings of the Middle Ages. Reconstruction of the principles of decoration and their types are based on the remaining synchronous illustrations in medieval manuscripts of the Middle East.